# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
# ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondunun 2015-ci ilin əsas qrant müsabiqəsi
çərçivəsində təqdim olunmuş kompleks elmi-tədqiqat
proqramlarının (EİF-KETPL-2015-1(25)) qalibi olmuş
layihənin yerinə yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **AMEA Mərkəzi Elmi Kitabxanasının nəzdində həyata keçirilən "Milli Rəqəmsal Yaddaş" üçün ümummilli əhəmiyyət kəsb edən məlumatların toplanılması, ekspertizası və etibarlı saxlanılması**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **İmanova Leyla Bəkir qızı**
Qrantın məbləği: **200 000 manat**
Layihənin nömrəsi: **EİF-KETPL-2-2015-1(25)-56/12/1-M-55**
Müqavilənin imzalanma tarixi: **01 noyabr 2017-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 dekabr 2017-ci il- 01 dekabr 2018-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| **1** | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
|---|---|
| | 1.MRY üçün vahid mərkəzdən idarə ediləcək VİS-MRY platformasının yaradılması üçün şərtlərin və qaydaların (elmi-texniki tapşırığın) hazırlanması icra edilib: Elmi-texniki tapşırıq hazırlanıb (Əlavə 1) və 12 dekabr 2017-ci il tarixində EİF-ə təqdim edilib.<br>2. Qaydalar hazırlanıb (Əlavə 2) və tətbiqinə başlanılıb.<br>3. Materialların toplanılması və sistemləşdirilməsi icra edilib. 1 dekabr 2017-ci il tarixindən 30 noyabr 2018-ci il tarixinə qədər Milli Rəqəmsal Yaddaş elektron kataloquna 6925 sənəd daxil edilib və kataloqdan reyestr formatında eksport edilib (Əlavə 3). Cəmi isə il ərzində **10903** sənəd MRY qrifi ilə qeyd olunmuşdur, **6925** sənəd e-kataloqa (MRY) daxil edilmişdir, **1147 kitab + 1360 məqalə** rəqəmsallaşdırılmış və MEK-in MRY bazasına daxil edilmişdir.<br>40 AMEA Elmi Tədqiqat İnstitutundan 17-si MRY ilə bağlı müraciətə cavab olaraq 6.480 addan ibarət siyahılar təqdim olunub:<br>1. Folklor İnstitutu. |

2. Hüquq və İnsan Haqları İnstitutu.
3. Milli Azərbaycan Tarixi Muzeyi.
4. Zoologiya İnstitutu.
5. Akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu.
6. Akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu.
7. Riyaziyyat və Mexanika İnstitutu.
8. Biofizika İnstitutu.
9. Geologiya və Geofizika İnstitutu.
10. Akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu.
11. İqtisadiyyat İnstitutu.
12. Torpaqşünaslıq və Aqrokimya İnstitutu.
13. Polimer Materialları İnstitutu.
14. Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu.
15. Qafqazşünaslıq İnstitutu.
16. Memarlıq və İncəsənət İnstitutu.
17. N.Gəncəvi adına Ədəbiyyat İnstitutu.
18. AMEA Naxçıvan Bölməsi

AMEA strukturları tərəfindən sorğunun cavablandırılmasına əlavə olaraq, MRY bazasına daxil edilib:

1. “Gözü yol çəkən məzarlar” layihəsi ilə qurulan əməkdaşlığın nəticəsi olaraq (Paris Sent Klu, Bobinyi qəsəbəsi, Monparnas, Nitsa Kokad, İtaliya Monte di Neze, Polşa, Varşavnın Tatar-Müsəlman məzarlığı, Almaniyanın Nyu Ulm şəhər, Tiflis Botanika, Rusiya Sankt Peterburq) MRY qrifli e-sənədlər əldə edilib; layihə UNESCO-nun işçi qrupuna təqdim edilib və kataloq formatı siyahıların qeydiyyatı üçün uyğun hesab edilib.
2. AzərMarka MMC tərəfindən Azərbaycanın tarixi, mədəniyyəti və təbiətinə aid 54 marka təqdim olunub və emal edilib.
3. Açıq yüklənmə mənbələrindən 118 sayda e-xəritə əldə olunub və emal edilib.
4. AR Xarici İşlər Nazirliyinin nəşri olan “Diplomatiya Aləmi” jurnalının *41* nömrəsinin e-versiyası bazaya yüklənib.
5. Prezident Heydər Əliyevə aid sənədlərin elektron bazası və reyestri hazırlanıb, bazaya daxil edilməklə yanaşı diskdə çap edilmiş şəkildə təqdim olunub. Topluda 375 nüsxə kitab, 170 sayda e-sənəd MRY qrifi ilə işlənilib.
6. Ümummilli lider H.Əliyevin irsi ilə bağlı kolleksiyaya əlavə 319 sənəd aşkarlanaraq daxil edilib.
7. AMEA-nın həqiqi üzvlərinin elmi irsində MRY qrifləri aşkarlanaraq işlənilib.
8. “Azərbaycan Respublikasının Silahlı Qüvvələri” və “Milli Qəhrəmanlar” kateqoriyalarında sənədlər işlənilib.
9. Ərəb qrafikası ilə Azərbaycan dilində çıxan nəşrlərdə MRY göstəriciləri üzrə sənədlər aşkarlanıb, işlənilib və Azərbaycan ədəbiyyatı və tarixinin təbliği üçün Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə və Beynəlxalq kitabxana layihəsinə yerləşdirmək təqdim edilib.
10. AMEA həqiqi üzvləri Əhəd Yaqubov, Musa Əliyev, Zemfira Səfərovaya aid MRY qrifi ilə sənədlər aşkarlanıb bazaya daxil edilib.
11. “Kitab abidələri” meyarlarına cavab verən 26 sənəd MRY qrifi ilə e-kataloqda qeyd olunub, iş davam edir

12. “Rasim Balayev - Milli qəhrəman obrazı” adlı elektron baza formalaşdırılıb (100-ə yaxın film, kitab və məqalə).
13. “Milli yaddaşımıza qaytarılan AXC irsi” kolleksiyası – araşdırıcı Əfqan Vəliyev tərəfindən ümumi sayı 120 olan sənəd kolleksiyası. Türkiyədən gətirilmişdir.
14. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən təqdim olunan sənədlər. Ümumilikdə Nizami Gəncəviyə aid 176 sayda sənəd MRY bazasına daxil edilib.
15. İRS jurnalının 30 nömrəsi.
16. “Əməkdar rəssam Elçin Aslanov kolleksiyası”, ümumi sayı 41 sənəd.
17. Diplomatik nümayəndəlik tərəfindən təqdim olunan MRY sənədləri: Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı səfirliyi – 4 sənəd, Azərbaycanın Türkmənistandakı Səfirliyi – 2 sənəd, Türkiyənin Azərbaycandakı Səfirliyi – 8 sənəd.
18. Beynəlxalq kitab mübadiləsi çərçivəsində 60 adda MRY qrifli sənəd.
19. Azərbaycanın aparıcı mətbuat orqanları olan “Azərbaycan”, “Yeni Azərbaycan”, “İki sahil”, “Olaylar”, “525”-ci qəzetlərin müəssisələrimiz arasında bağlanmış müqavilələrə əsasən elektron nüsxələrinin MEK-ə təqdim olunması və MRY bazasına yerləşdirilməsi prosesi davam etdirilir.
20. “525-ci qəzet” və “Olaylar” qəzetlərinin 2018 yanvar-iyun ayları üzrə qəzet nömrələrinin e-versiyaları tam formatda.
21. AMEA Naxçıvan Bölməsi tərəfindən MEK-in “Naxçıvan Kolleksiyası”na təqdim olunan 44 MRY qrifli sənəd.
22. Nümizmatika elektron bazasına “Azərbaycanın pul vahidləri” adlı MRY qrifli sənəd sənəd.
23. “Milli Ordu - Milli qəhrəmanlar” adlı elektron bazanın formalaşdırılması baş çatdırılıb. Bazada mövcud olan MRY qrifli sənədlərin sayı – 275.
24. Akademik Akif Əlizadənin MEK-ə təqdim etdiyi şəxsi kitab kolleksiyasında 10 MRY qrifli sənəd.
25. Filologiya elmləri doktoru Əlövsət Abdullayevin MEK-ə təqdim edilən elmi irsi MRY müstəvisində 148 MRY sənəd aşkarlanıb, iş davam edir.
26. Akademik Teymur Kərimlinin MEK-ə təqdim etdiyi şəxsi kitab kolleksiyasında 57 MRY qrifli sənəd.
27. Fəlsəfə elmləri doktoru Rəna Mirzəyevanın elmi irsindən 17 MRY qrifli sənəd.
28. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən təqdim edilən 4 MRY qrifli sənəd.
29. “Azərbaycan” nəşriyyatı ilə əməkdaşlıq çərçivəsində 16 sayda MRY qrifli sənəd.
30. “Seyidağa Onullahi kolleksiyasına” 90 sayda MRY sənəd.
31. Siyasi Sənədlər Arxivi tərəfindən təqdim edilən 4 sənəd.
32. 140 xalça nümunəsi.
33. Trend.az xəbər portalı rəhbərliyi tərəfindən təqdim edilən 42 sənəd.
34. *Tomas De Vaal* "Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında", New York 2003.
35. Dağlıq Qarabağ konflikti haqqında Томас Де Ваалъ. "Черный сад:"
36. Şərq Araşdırmaları üzrə Daşkənd Dövlət İnstitutunun professoru Bokijon Tukhliev tərəfindən Nizamişünaslıq və Xəmsə ilə bağlı MEK-ə göndərilən 14 e-sənəd.
37. Heydər Əliyev Fondu tərəfindən “Топчибаши: Парижский архив» 4 cilddə: 1919-1921, 1921-1923, 1924-1930, 1931-1940. 2016-2018.
38. Solmaz Rüstəmova-Tohidi. “Cümhuriyyətin “Azərbaycan” adlandırılması və onun tarixi əhəmiyyəti”. 2018
39. Firudin Ağasıoğlunun Azərbaycan türklərinin İslamaqədər tarixi haqqında 9 cildlik araşdırmanın “Doqquz Bitik (Azərbaycan türklərinin İslamaqədər tarixi)” ilk 3 cildi.

40. Cavanşir Feyziyevin 5 cildlik "Türk dünyası" kitabı ("Türk sivilizasiyasının təməl dəyərləri", "Türk xalqları", "Türk dövlətçiliyi tarixi", "Türkşünaslıq", "Türk dünyasının tarixi şəxsiyyətləri")
41. "UNESCO"", "Məzarlar", "MRY" qrifləri Mərkəzi Elmi Kitabxana tərəfindən tərtib edilən "AXC irsinin görkəmli nümayəndələri". 53 məzarın foto-şəkilləri, onlar barəsində məlumatlar MEK tərəfindən toplanılıb, MRY bazasına daxil edilib.
42. "UNESCO"", "Məzarlar", "MRY" qrifləri ilə Mərkəzi Elmi Kitabxana tərəfindən tərtib edilən "Məzarı tapılmayan azərbaycanlı azadlıq və repressiya qurbanları" adlı siyahılar Milli Rəqəmsal Yaddaş bazasına daxil edilib.
43. Solmaz Rüstəmova- Tohidinin müəllifi olduğu "Əlimərdan bəy Topçubaşov. İstanbulda diplomatik görüşlər" kitabı.
44. Telman Qasımovun rəhbəri olduğu "İRƏVAN: xatirələr və etiraflar" sənədli film.
45. Nəsiman Yaqublunun "Qafqaz İslam Ordusunun Azərbaycanda izləri" kitabı.

METODİKA: Siyahılar üzrə hazırlanmış "Qaydalar"a əsasən sənədlərin axtarışı və rəqəmsal formatda əldə edilməsi ilk növbədə MEK fondlarında (çap və e-sənədlər), sonra müəlliflərdə və ya nəşriyyatda, olmadıqda isə bilavasitə MEK-də rəqəmsallaşdırılma aparılıb. Paralel olaraq MEK yerli və xarici tərəfdşlarına sorğular vasitəsilə də sənədlərin axtarışını və siyahıların tərtib edilməsini aparmış, müəyyənləçdirilmiş kateqoriyalar üzrə bazaya daxil etmişdir. Məs., sənəd növü (markalar (Vatikan), xəritələr, sikkələr, ensiklopediyalar, lüğətlər, miniatür kitablar), siyahılar (Azərbaycan Milli Qəhrəmanları, 20 yanvar şəhidləri, Aprel döyüşləri şəhidləri), unikal sənədlər (Leypsiq Mərkəzi Antikvariatında aparılmış Turfan tapıntılarına məxsus mətnlərin əks olunduğu alman dilində faksimile - Turfan abidələri - Sprachwissenschaftliche Ergebnisse der deutschen Turfan-Forschung; 1911-ci ildə Bakıda ərəb qrafikası ilə Azərbaycan dilində çıxan siyasi-ictimai, ədəbi türkcə müsəlman qəzeti "Həqiqəti Əfkar", Türkmənçay müqaviləsinin orijinal nüsxəsindən üzköçürmə və s.). Sənədlər MEK tərəfindən hazırlanmış vahid elektron kataloqa xüsusi "MRY" qrifi ilə daxil edilmişdir. "MRY" qrifi ilə siyahı MEK-in elektron kataloqundan export edilib və hazırki hesabata əlavə edilib – ƏLAVƏ 3).
Layihə çərçivəsində dünya təcrübəsi öyrənilmiş, oxşar layihələrin konsepsiyaları araşdırılmışdır. İstər texniki tapşırığın hazırlanmasında, istər layihənin tələb qoyduğu standartların müəyyən edilməsində, istərsə də icraat prosesində müxtəlif yanaşmalar öyrənilmiş, təcrübə və yaşanılmış səhvlər nəzərə alınmış, ən uğurlu nümunələr seçilərək tətbiq edilmişdir. Belə ki, müqayisəli təhlil, analiz, sintez, optimallaşdırma kimi metodlardan istifadə etməklə Layihə üçün ən yaxşı nümunələr seçilmiş və tətbiqinə başlanmışdır. Layihə RDA, AACR2, MARC 21, İSBD qayda və standartlarının qəbul edilməsi və nəzərə alınması ilə hazırlanıb.

Rəqəmsallaşdırma prosesində optimallaşma problemlərinin tədqiq edillmiş və alqoritm formalaşdırılmışdır. Rəqəmsallaşma prosesində ehtiyacların qiymətləndirilməsi. Dünya təcrübəsində ehtiyacların qiymətləndirilməsi müəssisənin inkişaf strategiyasına uyğun olaraq rəqəmsallaşma obyektlərinin, onların prioritetlər üzrə rəqəmsallaşma ardıcıllığının, rəqəmsallaşma vasitələrinin müəyyən olunmasını əhatə edir. Ehtiyacların qiymətləndirilməsi zamanı aşağıda qeyd olunan göstəricilər təhlil olunub:

a. Sənəd növləri: MEK-də sənəd növləri tam çeşiddə təqdim olunub - kitab, jurnal, xəritə, marka, audio-foto-video formatlı materiallar və s. Bu sənədlər sırasında xüsusi yanaşma tələb edən XVI-cı əsrin əvvəlinə təsadüf edən kitablar, miniatür nəşrlər, faksimile formatında Türfan abidələri və s. sənədlər mövcuddur.
b. Sənəd növlərinin hər biri üzrə saya əsasən sənədlərin rəqəmsallaşması üçün skanerlərin formatı və yükü.
c. Sənədlərin fiziki ölçüsü və digər xüsusiyyətləri.
d. Sənədlərin sahə indeksi.

e. İnsan resurslarının qiymətləndirilməsi.
f. Texniki resursların və proqram təminatının qiymətləndirilməsi. Müxtəlif tiplərə aid olan kitab, qəzet, jurnal, marka, xəritə kimi sənədlərin rəqəmsallaşması üçün müvafiq olaraq Metis EDS GAMMA, Zeutchel OMNISCAN 12000 HQ, Zeutchel ZETA Compact BOOK SCANNER, Qudenis RBS 3.0 skannerlərindən istifadə olunur.
g. Sənədlərin növ və say dinamikasının proqnozu aşağıdakı istiqamətlərdə verilib: Rəqəmsallaşmanın davamlı, müvəqqəti, davamlı fasilələrlə və davamlı fasiləsiz rejimlərdə həyata keçirilməsinin müəyyənləşdirilməsi.
h. Yuxarıdakı göstəricilər nəzərə alınaraq iş həcmi növbəti addımlarda planlaşdırılıb:

- ✓ Yaddaşda saxlama alqoritminin hazırlanması;
- ✓ Qurulacaq yaddaş və server sisteminin ətraflı təhlili və layihənin yol xəritəsinin hazırlanması;
- ✓ Maliyyə təhlili;
- ✓ Rəqəmsallaşma prosesində iş axınının alqoritmi.

i. Bütün göstəricilər üzrə ehtiyaclar qiymtləndirildikdən sonra iş prosesinin aydın, təfsilatlı təsviri mərhələsi başlayır. İş prosesinin təsviri sənədində nəzarətin təmin edilməsi, resurslardan səmərəli istifadə, nəticənin qiymətləndirilməsi kimi şərtlər də nəzərə alınır.
j. Bilavasitə rəqəmsallaşma prosesinin mərhələləri:

- ✓ Sənədlərin icraata qəbul edilməsi və qeydiyyatı.
- ✓ Sənədlərin fiziki xüsusiyyətlərinə görə müvafiq rəqəmsallaşma avadanlığına yönləndirilməsi;
- ✓ Rəqəmsallaşmanı icra edən əməkdaşın adının elektron sənədin adı ilə bağlanması və qeydiyyata salınması;
- ✓ Rəqəmsallaşma;
- ✓ Rəqəmsal formatın keyfiyyətinin yoxlanılması;
- ✓ Konvertasiya (ehtiyac olan sənədlər üzrə);
- ✓ Rəqəmsal sənədin metadatalarının daxil edilməsi;
- ✓ Rəqəmsal sənədin son yaddaş qurğusunda yerləşdirilməsi;
- ✓ Rəqəmsal sənədin ehtiyat nüsxəsinin yaradılması;
- ✓ Rəqəmsal sənədin əlçatanlıq kateqoriyasının müəyyən edilməsi;
- ✓ Rəqəmsal sənədin istifadəyə verilməsi;
- ✓ Fiziki sənədin təhvil götürüldüyü mənbəyə geri qaytarılması.

k. Optimallaşma istiqamətləri. Zərurətlər siyahısı və prioritet (üstünlük) ardıcıllığı müəyyən edilən də üstünlük əsasən sənədin tarixi əhəmiyyətinə, fiziki istifadəyə yararlığına, eyni zamanda çox istifadəçinin ehtiyacına, müəyyən kolleksiyaya mənsub olmasına əsasən müəyyən edilir. Üstünlük siyahısı tərtib edilən dən sonra optimallaşdırma işləri, yəni situasiya və resurslardan ən səmərəli istifadə aşağıdakı suallar cavablandırılaraq həyata keçirilir:

- ✓ Sənədin rəqəmsal versiyası mövcuddur və əlçatandırmı? Rəqəmsallaşmaya ehtiyac varmı?
- ✓ Sənədin növündən asılı olaraq bəzən həmən sənədin rəqəmsal forması internetdə mövcud olur. Bu zaman eyni işin təkrarən və keyfiyyətə xələl gətirilmədən görülməsinə ehtiyac qalmır. Bəzi hallarda isə həmən sənədin rəqəmsal formasını bu sənədi hazırlayan nəşriyyat evindən və ya digər müvafiq qurumdan əldə etmək mümkün olur. Bu halları nəzərə alaraq rəqəmssallaşdırmaqdan öncə alternativi və ya rəqəmsal formatın

əlçatanlığını müəyyən etmək lazımdır. Rəqəmsallaşmaya ehtiyacı olan sənədin rəqəmsal versiyasının internetdə, mübadilə tərəfdaşlarında, nəşriyyatda və ya müəllifdə olub-olmaması müəyyən edilir. Əgər müvafiq sənədin rəqəmsal versiyası mövcuddursa, o zaman rəqəmsal sənədin keyfiyyəti yoxlanılır, keyfiyyət MEK-in tələblərinə cavab verirsə, proses bu mərhələdə dayandırılır və fayl serverə yüklənir.

- ✓ Rəqəmsallaşma hansı keyfiyyət standartlarına cavab verməlidir?

Rəqəmsallaşma prosesi üçün sənədin keyfiyyəti ilk növbədə avadanlığın imkanından asılıdır. Lakin bəzən yüksək keyfiyyətdə rəqəmsallaşmanı təmin edən avadanlığın da bütün imkanlarından istifadəsinə ehtiyac qalmır. Rəqəmsal sənəd nə dərəcədə yüksək keyfiyyətli olarsa, bir o qədər böyük yaddaş tutumu tələb edər. Belə sənədlərin sayının minlərlə olması yaddaş tələbinin dəfələrlə artması deməkdir. Bu səbəbdən də, rəqəmsal sənədin istifadə təyinatından asılı olaraq rəqəmsallaşmanın keyfiyyət dərəcəsi müəyyən edilir və əməkdaş təlimatlandırılır.

l. Sənədlərin növündən və istifadə təyinatından asılı olaraq rəqəmsallaşma işi aşağıdakı keyfiyyətlərdə aparılır:
   - ✓ Kitablar, sadə mətnli sənədlər: 150-300 DPİ (PPİ), mətn hissələri ağ-qara, rəsm olan səhifələr rəngli;
   - ✓ Fotolar: 600 DPİ;
   - ✓ Qəzetlər: 350 DPİ, ağ-qara;
   - ✓ Xəritələr: 500 DPİ, rəngli;
   - ✓ Markalar: 500 DPİ, rəngli.

m. Göstərilənlərdən başqa, standart tələblər rəqəmsallaşmanın fiziki məkanının təminatından, iki əlin eyni vaxtda istifadəsi, əllərin quru və təmiz olması, kitab yatağının geniş olması, kitabın skanner işığının altında baxımsız qalmaması, iki sənədin eyni zamanda rəqəmsallaşmaması kimi tələblərdən başlayaraq sənədin miqyasının 1:1 təmin edilməsi, orijinalda verilən mətn və şəklin aydınlıq dərəcəsinin saxlanılması, rəngə olan tələbin, oxunaqlığının təmin olunmasını tələb edir. MEK rəqəmsallaşma proseslərini yuxarıda göstərilən standartlar üzərində qurub.

n. Konvertasiya ehtiyaclarının qiymətləndirilməsi. Məlumdur ki, mətn sənədinin rəqəmsallaşması şəkil və ya tekst formatında hazırlana bilər. Yekun formatı müəyyən etmək məqsədilə rəqəmsal sənədin mətn tanıma formatına çevrilmə zərurəti müəyyən edilməlidir. Buna səbəb isə rəqəmsal sənədin foto formatdan mətn formatına konvertasiya prosesinin həcmli əlavə resursların tələb etməsidir. Zərurət yaranmadıqda rəqəmsal sənədin konvertasiya edilmədən birbaşa şəkil formatında saxlanması konvertasiya prosesinə sərf ediləcək zaman və resurslara kifayət qədər qənaət etmiş olur. MEK hal hazırda xüsusi zərurət yaranmadıqda sənədlərin rəqəmsallaşmış versiyasını mətn formatına konvertasiya etmir.

o. Metadataların tərtibatı genişliyi. Metadata nə qədər geniş tərtib edilərsə, rəqəmsal sənədin axtarış imkanları bir o qədər asanlaşmış olar. Məqsədindən asılı olaraq, metadata müxtəlif istiqamətlərdə, məs., informasiya paketi qismində istifadə oluna bilər. Belə ki, MEK hazırladığı metadatalardan tələb olunan məlumatları seçilmiş axtarış sahələri üzrə eksporta vermiş və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin “Azərbaycanın Kitab abidələri” siyahısı sorğusuna cavab olaraq təqdim etmişdir. Eləcə də metadatalardan kitabxana işi prosesində gündəlik aparılan sənədləşmə işlərində inzibati məlumat kimi də istifadə olunur. Məs., MEK-ə daxil olan və mübadilə edilən, arxivdən çıxarılan, hədiyyə edilən sənədlərin metadataların sadələşmiş formatda eksportu nəticəsində formalaşan təhvil-təslim aktların hazırlanmasında, sərgi üçün fondlardan gətirilmiş sənədlərin siyahılarının

hazırlanmasında istifadə olunur. Metadataların əsas istifadəçisi kitabxana oxucusudur. Oxucular metadataların ümumi olaraq 180 sahəsindən cəmi 5-7 sayda sahədən başlayaraq 10-17 saya qədər sahədən istifadə edir. Lakin nəzərə almaq lazımdır ki, metadata genişliyi sənədin rəqəmsal versiyasının ərsəyə gəlmə müddətini uzatmış olur. Bu səbəbdən də metadata genişliyi sənəddən istifadə təyinatına, istifadəçilərin axtarışda üstünlük verdikləri meyarlara əsasən müəyyənləşdilməlidir. İstifadəsi geniş yayılmayan metadata sahələrinin məcburi doldurulması öhdəliyi işin təşkilində optimallaşma məsələsinə mane ola biləcək amillərdəndir. MEK metadata sahələri geniş formada təsvir edilir. Bunun səbəbi isə yuxarıda göstərildiyi kimi, axtarış sistemlərində rəqəmsal sənədin daha asan tapılması və tələb olunduqda metadatalardan müxtəlif kombinasiyalarda istifadə zərurətindən irəli gəlir. Bu istiqamətdə MEK-in yanaşması istifadəçilər və araşdırıcılar üçün əlçatanlığın artırılmasına yönəldilmişdir.

p. Keyfiyyətə nəzarət hansı formada təmin edilməlidir?

- ✓ Keyfiyyətə nəzarət mərhələsində sənədin fiziki formasının rəqəmsal forması ilə eyni olub olmadığının təsdiq edilməsi lazımdır. Bunun üçün təsadüfi seçmə əsasında hazırlanmış nümunənin test edilməsi kütləvi şəkildə yol verilə biləcək səhvlərin qarşısını alır. Nəzarət zamanı müxtəlif məlumat tiplərinin, fərqli fiziki mühitlərin və ya fərqli məlumatların göstəricisinin olması testin etibarlılığını artırır.
- ✓ MEK-də rəqəmsallaşan sənəd bütün göstəricilərə görə keyfiyyət nəzarətindən keçir. Rəqəmsal vahidə çevrilən sənəd gələcəkdə təkrar rəqəmsallaşmaya göndərilməmək üçün tam şəkildə (bütün səhifələr) yoxlanılır, təsvirin və ya mətnin oxunaqlığı, sənədin kənar boşluqlarının eyniliyi, səhifələrin rəng çalarlarının oxşarlığı və rəng standart tələblərinə cavab verməsi yoxlanılır. MEK-də sənədlərin rəqəmsallaşmasının ilkin mərhələsində rəqəmsallaşma ilə sənədin keyfiyyətinə nəzarəti eyni kompüterdə, iş başa çatdıqdan sonra daşıyıcılar vasitəsilə FTP serverə yüklənirdi. Hazırda isə rəqəmsallaşma ilə keyfiyyətə nəzarət müxtəlif kompüterlədə həyata keçirilir, rəqəmsallaşmış sənəd fayl şəbəkəsi üzərindən keyfiyyətə nəzarət kompüterlərinə yönəldilir, yoxlama işi başa çatdırıldıqda avtomatik olaraq elektron kataloqda adını, təsvirini və uyğundursa əlavə məlumat işərələrini, - “MRY”, “Kitab abidəsi”, “UNESCO” - alıb FTP serverə yüklənir. Başqa tərəfdən, başlanğıc dövründə sənədlərin total rəqəmsallaşması həyata keçirirlidi. İşin həcmi artdıqca əmək bölgüsü və sənədlərin rəqəmsallaşmaya yönləndirilməsi müəyyən meyarlar əsasında həyata keçirildi. Hazırda sənədlər Nadir Fond, Şərq Ədəbiyyatı fondu, Milli Rəqəmsal Yaddaş, şəxsi kolleksiyaya mənsubiyyət kimi meyarlara cavab verdikdə, eləcə də təcili oxucu sifarişi və ya beynəlxalq mübadilə tələbinə əsasən rəqəmsallaşdırılır.
- ✓ MEK Milli Rəqəmsal Yaddaş layihəsinin rəqəmsallaşma prosesləri beynəlxalq standartlar üzərində, kitabxananın hədəflərinə, layihə məqsədlərinə uyğunlaşdırılmış və dünya informasiya məkanında mövcud problemlər də nəzərə alınmaqla təkmilləşdirimişdir.

q. Rəqəmsal informasiyanın etibarlı şəkildə saxlanması üzrə mövcud texnologiyaların təkmilləşdirilməsi, fayl arxitekturası modelləri arasında müqayisəli təhlilə əsaslanan yaddaş serverinin qurulması və istifadəyə verilməsi. Rəqəmsal informasiyanın etibarlı şəkildə saxlanması üzrə mövcud texnologiyaların təkmilləşdirilməsi. 1-ci mərhələdə sənədlər rəqəmsallaşma avadanlığında pərakənədə şəkildə saxlanılır və oradaca emal edilirdi. Növbəti mərhələdə lokal şəbəkə yaradıldı və fayllar mərkəzləşmiş şəkildə fayl serverinə lokal şəbəkəyə ötürülərək yerləşdirilirdi. Bu mərhələdə keyfiyyətə nəzarət başa çatdırılır və serverdəki yaddaşa (gələcək üçün istifadəsi nəzərdə tutulan qlobal şəbəkənin yaddaş serverinə) ötürülür. Bu növ fəaliyyətə

tələblər artmış, artan həcmin yerləşdirilməsi problemi həll edilmişdir. Rəqəmsal sənədin emalı və dövriyyəsi etibarlı şəkildə təmin edilmiş və dublikatların yaranması istisna edilmişdir. Qlobal şəbəkəyə yerləşdirilən sənədlər bazasının ehtiyyat nüsxəsi həftədə bir dəfə yenilənir. Ehtiyyat nüsxənin yaddaş qurğusunun yaddaş imkanları bitdikdə qurğu fiziki olaraq çıxarılır və yenisi ilə əvəzlənir. Qurğu məxfi fiziki məkanda mühafizə edilir. Bu mərhələdə mövcud texnologiyalar adaptasiya olunur, MEK-ə uyğun olanlar tətbiq edilir.

r. Kitabların PDF formata keçirilməsi prosesinin keyfiyyətinin artırılması üçün mərhələli şəkildə sənədin keyfiyyəti itmədən həcmini azaldan bir neçə proqramdan istifadə olunmuşdur.

**2** Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli)

1. MRY üçün vahid mərkəzdən idarə ediləcək VİS-MRY platformasının yaradılması şərtlərin (elmi-texniki tapşırığın) hazırlanması – İCRA EDİLİB - 100%
2. Sənədlərin seçilməsi üçün "Qaydalar" hazırlanması - İCRA EDİLİB - 100%
3. Reyestrin hazırlanması. İCRA EDİLİB – 100%
4. Materialların toplanılması və sistemləşdirilməsi. İCRA EDİLİB – 100%
5. Rəqəmsallaşdırma prosesində optimallaşma problemlərinin tədqiqi. İCRA EDİLİB – 100%.
6. VİS MRY platformasının MEK tərəfindən təqdim edilmiş texniki şərtlər əsasında hazırlanması və istifadəyə verilməsi – tenderdə qalib gələcək podratçı şirkət tərəfindən icra ediləcək. İCRA EDİLMƏYİB - 0%
7. Rəqəmsal informasiyanın etibarlı şəkildə saxlanması üzrə mövcud texnologiyaların təkmilləşdirilməsi, fayl arxitekturası modelləri arasında müqayisəli təhlilə əsaslanan yaddaş serverinin qurulması və istifadəyə verilməsi. İCRA EDİLİB – 50% (qalan hissəsi 6-cı bənddə göstərilən VİS MRY platforması tam şəkildə istifadəyə verildikdən sonra tamamlanacaq, proqram təminatı ilə bağlıdır).

**3** Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir)

Azərbaycanın kitabxana-informasiya məkanı üçün ilk dəfə olaraq sənəd dövriyyəsini, kitabxana xidmətlərini, insan resurslarını, maliyyəni, inventarı və başqa komponentləri özündə birləşdirə biləcək proqram platforması üçün texniki tapşırıq hazırlanıb.
Azərbaycan informasiya məkanına Milli Rəqəmsal Yaddaş anlamı gətirilib.
Milli Rəqəmsal Yaddaş legitimləşib və elmiləşib.
Azərbaycan üçün ilk dəfə olaraq Milli Yaddaş anlamı fundamental sənəd mühafizə sistemi ilə - kitabxana ilə birləşdirilib.
Rəqəmsallaşma prosesləri Milli Rəqəmsal Yaddaş layihəsinin beynəlxalq standartlar üzərində, kitabxananın hədəflərinə, layihə məqsədlərinə uyğunlaşdırılıb və dünya informasiya məkanında mövcud olan problemlər də nəzərə alınmaqla təkmilləşdirilib, vaxt və resurs itkisinin qarşısı alınıb, əmək bölgüsü təmin edilib, server yaddaşından optimal istifadə alqoritmi yaradılıb.

**4** Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)*

1. Leyla İmanova, İqrar Bağıyev, Elmar Quliyev. "Rəqəmsallaşdırmanın optimallaşdırma yolları" (AMEA Mərkəzi Elmi Kitabxanasının Milli Rəqəmsal Yaddaş layihəsinin təcrübəsi əsasında) Məqalə BDU-nun "Kitabxanaşünaslıq və informasiya jurnalı". 2018, N1. Səhifə 48
2. Aygun Safarova. "Study of national scientific legacy in conditions of academic library (on the base of the practice of the Central Scientific Library (CSL) of Azerbaijan National Academy

| | |
|---|---|
| | of Sciences (ANAS))". Məqalə. Çapa qəbul olunub. "British journal for social and economic research" jurnalı. İyun, 2018.<br>3. Leyla İmanova. "Rəqəmsallaşmanın optimallaşdırma yolları - AMEA Mərkəzi Elmi Kitabxanasının Milli Rəqəmsal Yaddaş layihəsinin təcrübəsi əsasında". M.F.Axundov adına Milli Kitabxananın 95 illik yubileyinə həsr olunmuş Beynəlxalq Konfransın materialları. 2018. Səh.20-29.<br>4. Leyla İmanova. "Milli Rəqəmsal Yaddaş üçün ümummilli əhəmiyyət kəsb edən məlumatların toplanması, ekspertizası və etibarlı saxlanılması üçün VİS-MRY platforması". BDU Kitabxana-İnformasiya jurnalı. Aprel, 2018. Çapa qəbul edilib.<br>5. Aygün Səfərova. "Milli Rəqəmsal Yaddaş: layihələr və perspektivlər". Tezis. "Kitabxana-informasiya fəaliyyətində innovasiyalar və fənlərarası inteqrasiya" mövzusunda Beynəlxalq elmi konfransın materialları. Çapa qəbul edilib. 24. aprel 2018.<br>6. Лейла Иманова. «Национальная Цифровая Память Азербайджана». Məqalə. Özbəkistan Respublikasının Elmlər Akademiyasının Fundamental Kitabxanasının 85 illik yubileyinə həsr olunmuş Konfrans materialları. Çapa qəbul edilib.<br>7. Akademik Əhəd Yaqubov. Bio-bibliqorafik göstərici. Azərbaycanın elm və mədəniyyət xadimləri seriyası. 2018. Çap olunub. MRY qrifi ilə bazaya aid edilib.<br>8. Akademik Zemfira Səfərova. Bio-bibliqorafik göstərici. Azərbaycanın elm və mədəniyyət xadimləri seriyası. 2018. Çap olunub. MRY qrifi ilə bazaya aid edilib.<br>9. Akademik Aqil Əlirza oğlu Əliyev. Bio-bibliqorafik göstərici. Azərbaycanın elm və mədəniyyət xadimləri seriyası. 2018. Çap olunub. MRY qrifi ilə bazaya aid edilib.<br>10. Akademik Hətəm Quliyev. Bio-bibliqorafik göstərici. Azərbaycanın elm və mədəniyyət xadimləri seriyası. 2018. Çap olunub. MRY qrifi ilə bazaya aid edilib.<br>11. Akademik Çingiz Əliyev. Bio-bibliqorafik göstərici. Azərbaycanın elm və mədəniyyət xadimləri seriyası. 2018. Çap olunub. MRY qrifi ilə bazaya aid edilib.<br>12. Akademik Musa Əliyev. Bio-bibliqorafik göstərici. Azərbaycanın elm və mədəniyyət xadimləri seriyası. 2018. Çap olunub. MRY qrifi ilə bazaya aid edilib.<br>13. Akademik Əjdər Məcidov. Bio-bibliqorafik göstərici. Azərbaycanın elm və mədəniyyət xadimləri seriyası. 2018. Çap olunub. MRY qrifi ilə bazaya aid edilib.<br>14. Akademik Hafiz Əlimərdanov. Bio-bibliqorafik göstərici. Azərbaycanın elm və mədəniyyət xadimləri seriyası. 2018. Çap olunub. MRY qrifi ilə bazaya aid edilib. |
| **5** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)*<br>Rəqəmsallaşmanın optimallaşdırma yolları təklif olunub, texniki şərtlər planı işlənilib, MARC 21 formatlı e-kataloqdan eksport üsulu ilə e-reyestr hazırlanıb |
| **6** | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>*NƏZƏRDƏ TUTULMAYIB* |
| **7** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | *(burada doldurmalı)*<br>*NƏZƏRDƏ TUTULMAYIB* |
| **8** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *NƏZƏRDƏ TUTULMAYIB* |
| **9** | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | 1. MEK. "Qədim xəritələr kolleksiyası (elektron)". Təqdimat. 07.12. 2017 |

2. MEK və "Turan Cavid Qadın Mərkəzi" İctimai Birliyi. "Türk dünyasının qüdrətli qılınc və qələmi". Hüseun Cavid və Kazım Qarabəkirin xatirəsinə həsr olunmuş konfrans. 15.12.2017
3. MEK fondlarında mühafizə olunan çap və rəqəmsal ensiklopediyalar". Təqdimat. 21.12.2017
4. Gürcüstan Milli Elmi Kitabxanasının təmsilçilərinin MEK-i ziyarət tədbiri. 22 dekabr 2017-ci il. Məlumatlandırma.
5. "Azərbaycan" qəzeti elektron formatda MEK-in Milli Rəqəmsal Yaddaş bazasına daxil ediləcək" adlı tədbir. 28.12.2018
6. MEK dekabr ayı ərzində fondlarına daxil olan sənədlərin təqdimatı. 28.12.2017
7. MEK 2017-ci ilin yekunlarına həsr olunmuş hesabat iclası. 09.01.2018
8. "İki sahil" qəzeti elektron formatda MEK-in Milli Rəqəmsal Yaddaş bazasına daxil ediləcək" adlı tədbir. 11.01.2018
9. MEK və Ombudsman Aparatı arasında əməkdaşlığa dair Memorandumun imzalanması tədbiri. 16.01.2018
10. MEK Vatikandan poçt markaları alıb. 19.01.2018.
11. MEK-də Xocalı soyqırımının 26-cı ildönümünə həsr olunmuş tədbirdə çıxış.
12. VI Qlobal Bakı Forumu çərçivəsində Beynəlxalq Nizami Gəncəvi Mərkəzinin (BNGM) təşkilatçılığı ilə Beynəlxalq Kitab Sammiti. 19 mart 2018. Çıxış.
13. Azərbaycan Respublikasının İrandakı Səfiri ilə MEK-də görüş zamanı MRY-ın ərəb qrafikalı Azərbaycan mənbələrinin Azərbaycan Milli Yaddaşının təbliği baxımından istifadə perspektivlərinin müzakirəsi. 29 mart 2018-ci il
14. MEK-də təcrübə keçən BDU tələbələrinin ixtisas imtahanı zamanı "MRY" əlavə sual bloku üzrə cavablandırma. 06 aprel 2018-ci il. Xəbər buraxılışı (Qeyd etmək lazımdır ki təcrübəyə gələn bütün tələbə qrupları MRY anlayışı və təcrübəsi ilə tanış edilir. İmtahanda MRY haqqında xüsusi suallar mütləq səsləndirilir).
15. AMEA MEK və Folklor İnstitutu. Mifologiya, etimologiya və etnogenez üzrə ixtisaslaşmış ədəbiyyatçünas professor Mirəli Seyidovun 100 illik M.Seyidovun "Qabusnamə"nin Azərbaycan və erməni dillərinə tərcümələrinə dair müzakirə. erməni dilinə tərcümədə yol verilmiş xətaların səsləndirilməsi. 24 aprel 2018-ci il
16. MEK-in təşkilati dəstəyi ilə UNESCO-nun kafedrası ilə dəyirmi masa. Azərbaycan milli irsinin öyrənilməsi və reyestrlərin hazırlanması prosesində MEK e-kataloqunun istifadəsinin müzakirəsi. 27 aprel 2018-ci il.
17. AXC-nin 100 illiyi münasibətilə Qobustan rayonunda naməlum türk əsgərinin məzarının ziyarət mərasimində çıxış. 30 aprel 2018-ci il.
18. Türkmənistanın Azərbaycandakı Səfiri ilə görüş-müzakirə. 02 may 2018-ci il
19. MEK-də ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimində MRY sənədlərinin elektron bazasının və reyestrinin təqdimatı. 03 may 2018-ci il
20. MEK-də Nadir kitab fondunda mühafizə olunan Poçt markaları kolleksiyasının ictimai təqdimatı. 10 may 2018-ci il
21. MEK əməkdaşları Qubadakı soyqırımı məzarlığının ziyarəti zamanı çıxış və MRY barədə məlumatlandırma. 18 may 2018-ci il. Xəbər buraxılışı, reportaj.
22. AXC-yə və onun liderlərinə aid Türkiyədə saxlanılan arxiv sənədlərinin (əlyazmaların, kitabların, jurnalların, xəritələrin – araşdırmaçı, sosiologiya elmləri doktoru Əfqan Vəliyev tərəfindən MEK-ə təqdim edilməsinə həsr olunmuş tədbir. 8 iyun 2018-ci il. Xəbər buraxılışı.
23. MEK-də Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyinə həsr olunmuş sərgi. 12 iyun 2018. Xəbər buraxılışı, reportaj
24. AMEA Mərkəzi Elmi Kitabxanasının (MEK) üzv olduğu mənəvi ənənələrin, onların mədəniyyətlərinin xüsusiyyətlərinin və dinlərarası dialoqun komparativ araşdırılmasına dair UNESCO kafedrasının (Rusiya, Moskva) da daxil olduğu "Günəş axtarışında" işçi qrupunun iclası. 12 iyun 2018-ci il. Xəbər buraxılışı.

25. AMEA Mərkəzi Elmi Kitabxanası (MEK) Vikipediyada mövzulu ay layihəsi çərçivəsində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş “Azərbaycan Xalq Cümhuriyyəti ayı”nın nəticələrini əks etdirən tədbir. 14 iyun 2018-ci il. Xəbər buraxılışı, reportaj.
26. AMEA Mərkəzi Elmi Kitabxanası (MEK) ilə Bakı Dövlət Universitetinin (BDU) Elmi Kitabxanası və Jurnalistika fakültəsi arasında əməkdaşlıq haqqında Memorandumun imzalanması tədbiri. 15 iyun 2018-ci il. Xəbər buraxılışı
27. AMEA Mərkəzi Elmi Kitabxanasının (MEK) ""Azərbaycan Xalq Cümhuriyyəti - 100 işığında Azərbaycan Silahlı Qüvvələri günü" informasiya blokuna MEK-in töhfəsi"" adlı tədbiri. 25 iyun 2018-ci il. Xəbər buraxılışı.
28. MEK-də akademik Cəlal Əliyevin 90 illik yubileyinə həsr olunmuş sərgi. 2 iyul 2018-ci il. Xəbər buraxılışı.
29. AMEA Mərkəzi Elmi Kitabxanasının “525-ci qəzet” və “Olaylar” qəzetləri ilə müəllif müqaviləsinin imzalanması tədbiri. 17 iyul 2018. Xəbər buraxılışı.
30. AMEA Mərkəzi Elmi Kitabxanasının (MEK) 22 iyul Milli Mətbuat Günü münasibətilə “AXC-100 işığında MEK-in Milli Mətbuat İnformasiya blokuna töhfəsi” adlı tədbiri. 18 iyul 2018-ci il. Xəbər buraxılışı.
31. Türkiyənin Kastamonu Universitetinin tələbələrinin və xaricdə uğur qazanan azərbaycanlı gənclərin MEK-i ziyarət etməsi. 23 iyul 2018-ci il. Xəbər buraxılışı.
32. AR Mətbuat Şurası ilə görüşdə Leyla İmanovanın, Aygün Səfərovanın, Mübariz Göyüşlünün çıxışları. 14 noyabr 2018. Mediada işıqlandırılıb.
33. MEK-də “AXC-100. İstanbul – Bakı: toxunula bilən arxivlər” mövzusunda təqdimatda Leyla İmanovanın, Aygün Səfərovanın və Mübariz Göyüşlünün çıxışları.
12 sentyabr 2018-ci il. Mediada işıqlandırılıb.
34. Leyla İmanova. M.F. Axundov adına kitabxanaın 90 illik yubileyinə həsr olunuş Beynəlxalq konfransda “Rəqəmsallaşdırma prosesinin optimallaşdırma yolları” mövzusunda təqdimat. 01 oktyabr 2018. Mediada işıqlandırılıb. 278-28 sentyabr 2018. Mediada işıqlandırılıb.
35. “Mirzə Ələkbər Sabir virtual muzeyi” ingilis və rus dillərində. MEK-in dəstəyi ilə. təqdim olunub. 14 oktyabr 2018-ci il. Mediada işıqlandırılıb.
36. 11 saylı cəzaçəkmə müəssisəsində mütaliənin təbliği layihəsi çərçivəsində. 22 oktyabr 2018- ci il. Mediada işıqlandırılıb.
37. Mətbuat Şurası və Mərkəzi Elmi Kitabxana arasında əməkdaşlıq haqqında Memorandum imzalanma mərasimində çıxış. Leyla İmanova, Mübariz Göyüşlü, Aygüm Səfərova. 14 noyabr 2018-ci il.

**10** Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları

*(burada doldurmalı)*
*NƏZƏRDƏ TUTULMAYIB*

**11** Yerli həmkarlarla əlaqələr

1. AMEA institutları, Ombudsman aparatı, nəşriyyatlar (“Teas-Press, “Elm”, “Qanun”, “Elm və təhsil”, “Şərq-Qərb”), redaksiyalar (“İki Sahil”, “Azərbaycan”, “Yeni Azərbaycan”), AzərMarka MMC;
2. fondların konkret mövzu ilə bağlı birləşdirilməsi ilə bağlı ADA kitabxanası, Hüseyn Cavidin ev-muzeyi (Naxçıvan) ilə əməkdaşlıq edilib;
3. M.F.Axundov adına Milli Kitabxanaya bəstəkar professor Qara Qarayevin e-fondları təqdim edilib;
4. Milli Xalça muzeyi ilə keçə üzərində ornamentlər mövzusunda Beynəlxalq Simpoziuma hazırlıq çərçivəsində elektron materialların mübadiləsi və simpozium zamanı birgə elektron

təqdimatın nümayişi üçün materialın hazırlanması və informasiya dəstəyi üzrə əməkdaşlıq qurulmuşdur;

5. AMEA Humanitar Elmlər Bölməsi ilə “Beynəlxalq Muğam Simpoziumu” çərçivəsində informasiya dəstəyi və təşkilati yardım göstərilib.
6. “AzərMarka” MMC;
7. Aran Film Yaradıcılıq Mərkəzi ilə “Gözü Yol Çəkən Məzarlar” layihəsi çərçivəsində;
8. AMEA Elmi-Tədqiqat İnstititutları.
9. AMEA Naxçıvan bölməsi;
10. 525-ci qəzet;
11. Olaylar qəzeti;
12. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi;
13. Əfqan Vəliyev – AXC irsi;
14. Elçin Aslanov – kolleksiya;
15. Azərbaycan Respublikasının Özbəkistan respublikasındakı səfirliyi;
16. Azərbaycan Respublikasının Türkmənistandakı səfirliyi.
17. Bakı Dövlət Universitetinin  Jurnalistika fakültəsi
18. Bakı Dövlət Universitetinin Elmi Kitabxanası
19. “525-ci qəzet”
20. “Olaylar” qəzeti
21. Mənəvi ənənələrin və dinlərarası dialoqun komparativ araşdırılmasına dair UNESCO nəzdində kafedranın İşçi qrupu;
22. Azərbaycan Mətbuat Şurası;
23. Bakı şəhəri 11 saylı cəzaçəkmə müəssisəsi;
24. “Mirzə Ələkbər Sabir “ virtual muzeyi;
25. AMEA Elmi Tədqiqat İnstitutları;
26. Milli Arxiv İdarəsi;
27. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi;
28. Trend.az xəbər portalı;
29. Vergilər Nazirliyinin Tədris Mərkəzi;
30. Qarabağ Azadlıq Təşkilatı;
31. “Azər-İlmə” MMC;
32. “Azərbaycan” nəşriyyatı;
33. DTX;
34. Pirallahı Rayon İcra hakimiyyəti;
35. Vergilər Nazirliyinin Tədris Mərkəzi;
36. AR MN Xalça Muzeyi;
37. “Azərbaycan” qəzeti;
38. “Yeni Azərbaycan” qəzeti;
39. “İki sahil” qəzeti;
40. “Olaylar” qəzeti;
41. “525”-ci qəzet.

**12** Xarici həmkarlarla əlaqələr

1. Kazım Qarabəkirin ev-muzeyi (İstanbul);
2. Georq Hazainin ev-kitabxanası (Budapeşt);
3. Nizami Ganjavi International Center  for Learning, Tolerance, Dialogue & Understanding.

(Tədris, Tolerantlıq, Dialoq və Anlaşma Mərkəzi);
4. Gürcüstan Milli Elmi Kitabxanası.
5. Türkiyənin Ege Universitetinin Ədəbiyyat Fakültəsi;
6. İSAM;
7. Türk Yurdu dərgisi;
8. UNESCO-nun mənəvi ənənələrin və dinlərarası dialoqun müqayisəli tədqiqatları kafedrası. Qafqaz Tarixi Mərkəzi;
9. İtaliyanın Ca Foscari Venezia Universitetinin Linqvistika kitabxanası;
10. Azərbaycan Respublikasının İrandakı Səfirliyi
11. Türkiyənin Azərbaycandakı səfirliyi;
12. Rusiya Dövlət Kitabxanası;
13. Türkiyə, Türk Yurdu Dərgisi Redaksiyası;
14. Türkiyə, Ege Universiteti Yavuz Akpinar.
15. Türkmənistan Respublikasının Azərbaycandakı Səfirliyi
16. Şərq Araşdırmaları üzrə Daşkənd Dövlət İnstitutu, prof.Bokijon Tukhliev;
17. ABŞ Konqres Kitabxanası;
18. Belarus Milli Kitabxanası;
19. Cənubi Koreya, Avrasiya Türk Araşdırmaları nəzdində Türk dünyası kitabxanası; Ukrayna, İsveçrə, Niderland, Türkiyə kitabxanaları;
20. Rusiya Dövlət Kitabxanası;
21. Rusiya Milli Kitabxanası.
22. Macarıstan Respublikasının Azərbaycandakı Səfirliyi
23. Türkiyənin Karabürk Universiteti ilə müqavilə imzalanıb.

13 Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa)

MEK heyəti MRY üzrə təlimatlandırılır, əlaqələndirmə seminarları keçirilir, modullar üzrə hesabatlar müzakirə olunur. Layihə region üçün yenidir, ayrı-ayrı hissələrə bölündükdə ekspert işi, rəqəmsallaşdırma, kitabxana işi və əlaqələndirmə komponentləri üzrə kadrlar.
MRY üzrə personalın təlimatlandırılması daimi prosesdir. Bununla bağlı əlaqələndirmə seminarları, modullar üzrə hesabatlar keçirilir. Layihə region üçün yenidir, ayrı-ayrı hissələrə bölündükdə ekspert işi, rəqəmsallaşdırma, kitabxana işi, əlaqələndirmə komponentləri və MRY göstəricilərinin aşkarlanması istiqamətində əməkdaşların məlumatlandırılması, təlimatlandırılması həyata keçirilir. Eləcə də BDU Kitabxana-İnformasiya fakültəsinin tələbələrinin təcrübə proqramına MRY komponenti daxil edilib. 1 layihə icraçısı Proqramlaşdırma üzrə kurs dinləyicisidir.
Mövzuya əsasən hazırlanmış alqoıritm üzrə əməkdaşlar xüsusi təlimat alır və icrası nəzarətdə saxlanılır.
Mövzuya əsasən hazırlanmış alqoritm üzrə əməkdaşlar xüsusi təlimat alır və icrası nəzarətdə saxlanılır.

14 Sərgilərdə iştirak (əgər baş tutubsa)

1. “20 Yanvar faciəsi” mövzusunda MEK-də uzunmüddətli sərgi
2. “Xocalı soyqırımı - 26” mövzusunda MEK-də uzunmüddətli sərgi
3. “Heydər Əliyev – 95” mövzusunda MEK-də uzunmüddətli sərgi
4. “Azərbaycan Xalq Cümhuriyyəti – 100” mövzusunda MEK-də uzunmüddətli sərgi
   Sərgilər səyyar şəkilodə müxtəlif qurumların eyni mövzuda keçirdiyi tədbirlərə də təqdim olunmçuşdur.
